Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 789 (Cild I); 2024, № 1, maddə 3; 2026, № 1, maddələr 5, 8) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 3.1.2-1-ci maddə əlavə edilsin:

"3.1.2-1. millilik və dünyəvilik – milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi ümumi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi;".

2. 4.0.25-ci maddəyə "təsvirlərini" sözündən sonra "və təhsilverənlər üçün geyim ilə bağlı tələbləri" sözləri əlavə edilsin.

3. 12-ci maddə üzrə:

3.1. 12.13-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Dövlət ümumi təhsil müəssisəsində təhsilverənlər üçün geyim ilə bağlı tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.";

3.2. aşağıdakı məzmunda 12.13-1-ci maddə əlavə edilsin:

"12.13-1. Dövlət ümumi təhsil müəssisəsində təhsilalanlar və təhsilverənlər tərəfindən geyim ilə bağlı tələblərə riayət olunmalıdır.".

4. Aşağıdakı məzmunda 24.2.2-1-ci maddə əlavə edilsin:

"24.2.2-1. dövlət ümumi təhsil müəssisəsində övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) tərəfindən geyim forması ilə bağlı tələblərə riayət olunmasını

təmin etmək;”.

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 7 iyul 2026-cı il***